ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 5. CİLT, 1. SAYI, 2021, 13 - 21. s., TÜRKİYE

https://doi.org/10.30563/turklad.876881

İntihal / *Plagiarism*

*This article was checked by* turnitin programında bu makale taranmıştır

Makale Bilgisi / *Article information*

| | |
|---|---|
| Makale Türü / *Article types* | : Araştırma Makalesi / *Research article* |
| Geliş Tarihi / *Received date* | : 08.02.2021 |
| Kabul Tarihi / *Accepted date* | : 01.06.2021 |
| Yayın Tarihi / *Date published* | : 20.06.2021 |

Atıf / *Citation*

Habibli, R. (2021). "Xüsusi Ad Hüquqi Kontekstdə". *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD)*, 5. Cilt, 1. Sayı, 13-21.

# XÜSUSİ AD HÜQUQİ KONTEKSTDƏ

*A proper name in the legal context*

**REYHAN HABİBLİ**[1]

## Öz

Onimik sistemdə qanunvericiliyin təkmilləşdirilməsi zamanın tələbinə uyğun olaraq onomastikanın inkişafına xidmət edən aktual problemlərdən biridir. Onimiya sahəsində nizamlamanın başlıca vasitəsi bu adların rəsmi formalarının kodifikasiyasıdır. Onomastikada kodifikasiya (məcəlləşdirmə) xüsusi adlarla bağlı normativ hüquqi aktların forma və məzmun baxımından təkmilləşdirilməsi yolu ilə sistemləşdirilməsi və dil normalarının nizama salınmasıdır.

Cəmiyyətdəki sosial, siyasi dəyişikliklər müxtəlif münaqişəli nitq situasiyalarının yaranmasına və bunun nəticəsi kimi, xüsusi linqvistik və fənlərarası araşdırmalar tələb edən tətbiqi məsələlərin çoxalmasına səbəb olur. Belə münaqişələrin nizama salınması çox vaxt hüquqi müdaxilə tələb edir.

Məqalənin obyekti Azərbaycan dilindəki xüsusi adlardır. Tədqiqatın məqsədi onomastikada kodifikasiya fəaliyyətinin prinsiplərini müəyyənləşdirmək, xüsusi adın yerinə yetirdiyi funksiyaları təhlil etmək, Azərbaycan onomastikası sahəsində işlərin sistemləşdirilməsi və koordinasiyası üzrə təkliflər irəli sürməkdir. Məqalənin metodoloji bazasını sistemli analiz, təsviri, kompleks və təsnifat metodları təşkil edir. Məqalədə dil vahidləri kimi xüsusi adların hüquqi sahədə işlənməsinin spesifikası şərh edilir, ad formalarının məcəlləşdirilməsindən, bu prosesi şərtləndirən amillərdən, onomastik fəaliyyətin əsas istiqamətlərindən bəhs olunur.

**Açar Sözlər:** Onim, Kodifikasiya, Onomastika, Hüquqi Linqvistika, Onomastik Sistem

[1] Doç. Dr. Azerbaycan. Bakü Devlet Üniversitesi, Azerbaycan Dilciliği Bölümü. El-mek: rhabibli@bsu.edu.az
ORCİD ID: https://orcid.org/0000-0003-3236-0644

**Abstract**

The improvement of the legislation in the onymic system is one of the actual problems serving to the development of onomastics according to the demand of the time. The basic means of the regulation in the sphere of the onomastics is the codification of the official forms of these names. Codification (codifying) in onomastics is the systematization of the normative juridical acts connected with the proper names by improvement them from the point of view of form and content and regulation of the language norms.

The social and political changes in the society cause the formation of the different disputed speech situations and as a result of it increase the applied problems demanding the special linguistic and interdisciplinary explorations. To regulate these conflicts mostly demands juridical interference.

The object of the article is the proper names in the Azerbaijan language. The purpose of the investigation is to determine the principles of the codification activity, analyze the functions carrying out by the proper names, propose motions for the systematization and coordination of the problems in the sphere of Azerbaijan onomastics. The methodological base of the article consists of the systematic analysis, descriptive, complex and classification methods. The article deals with the study of the specification of the usage of the proper names in the juridical sphere as a language unit, codification of the name forms, the factors substantiating this process and the main directions of the onomastic activity.

**Key Words:** Onym, Codification, Onomastics, Juridical Linguistics, Onomastic System

**Giriş**

Tətbiqi məsələlərin həlli ilə əlaqədar dilçilikdə yeni istiqamətlər meydana çıxır, bu da ənənəvi linqvistik obyektləri yeni rakursda nəzərdən keçirməyə imkan verir. Dilin antroposentrikliyi onimlərin (xüsusi adların) xüsusi mövqeyini müəyyənləşdirir. Müasir dilçiliyin prinsipial istiqamətlərindən biri kimi antroposentrizm yeni elmi aspektlərin yaranmasını müəyyən edir ki, “onların fərqli cəhəti kommunikasiya və nitq situasiyası iştirakçılarının (dil istifadəçilərinin) tədqiqat obyektləri çevrəsinə dildaxili və dilxarici faktların birləşdiyi nöqtələrin daxil edilməsidir” (Муравьева, 2004).

Onimlər müxtəlif dilxarici sferalara, o cümlədən cəmiyyətin hüquqi cəhətdən nizamlanmasını təmin edən hüquqşünaslıq sahəsinə də daxil olur. Xüsusi adların dilçilik və hüququn kəsişməsində nəzərdən keçirilməsi yeni sahənin – hüquqi linqvistikanın meydana gəlməsi və inkişafı ilə mümkün olur. Hüquqi linqvistika elə bir sahədir ki, onun tədqiqat obyekti dil və hüququn qarşılıqlı əlaqəsidir. N.D.Qolevin fikrincə, “hüquqi linqvistikanın yaranması, onun müstəqil sahə kimi irəli sürülməsi, hər şeydən əvvəl, dilin hüquqi sahədə işlənmə spesifikası ilə şərtlənmişdir. Hüquqi linqvistikanın tədqiqat obyekti dil və hüququn kəsişmə nöqtəsi, predmeti isə dil-hüquq hadisələridir” (Голев). Hazırda hüquqi linqvistika fəal inkişaf prosesindədir. Bu sahə A.N.Baranov, K.İ.Brinev, N.D.Qolev, M.V.Qorbanevski, V.İ.Jelvis, Y.S.Kara-Murza, V.İ.Karasik, N.B.Lebedeva, V.S.Tretyakova, T.V.Çernışova və b. alimlər tərəfindən öyrənilir. Hüquqi sferaya daxil olan onimlərin linqvistik tədqiqi problemlərinin aktuallığı həm dildaxili, həm də dilxarici amillərlə müəyyənləşir.

Cəmiyyətdəki sosial, siyasi dəyişikliklər müxtəlif münaqişəli nitq situasiyalarının yaranmasına səbəb olmuşdur. Bunun nəticəsi kimi, xüsusi linqvistik və fənlərarası araşdırmalar tələb edən tətbiqi məsələlər getdikcə çoxalır. Belə münaqişələrin nizama salınması çox vaxt hüquqi müdaxilə tələb edir.

Məqalənin obyekti Azərbaycan dilindəki xüsusi adlardır. Araşdırmada qarşıya qoyulan məqsədlər bunlardır:

1)onomastikada kodifikasiya fəaliyyətinin prinsiplərini müəyyənləşdirmək,

2)onimin yerinə yetirdiyi funksiyaları təhlil etmək,

3)onomastika sahəsində işlərin sistemləşdirilməsi və koordinasiyası üzrə təkliflər irəli sürməkdir.

Məqalənin metodoloji bazasını sistemli analiz, təsviri, kompleks və klassifikasiya metodları təşkil edir.

**Onimlərin Kodifikasiyası**

Onomastik vahidlərin kodifikasiyası (məcəlləşdirilməsi) son dövrlərin aktual məsələlərindən biridir. Bu adların, xüsusən şəxs adlarının sosiumda işlənməsi, seçimi, qeydiyyatı hər bir cəmiyyət üzvünün həyatında əhəmiyyət kəsb edir. Şəxs adları sistemində qanunvericiliyin təkmilləşdirilməsi bu sistemin inkişafına xidmət edən, onu dövrün, zamanın tələblərinə uyğunlaşdıran mühüm məsələlərdən biridir. Şəxs adları sahəsində dilin əsas tənzimlənmə vasitəsi onların ədəbi dildə işlənən rəsmi formalarının hərtərəfli məcəlləşdirilməsi - kodifikasiyasıdır. “Məcəlləşdirmə normativ hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ hüquqi aktlarda birləşdirilməsidir” (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011). Lüğətlərdə bu termin həm hüquqi, həm də linqvistik baxımdan izah edilir, məsələn: 1. hüq. Dövlət qanunlarının ayrı-ayrı hüquq sahələri üzrə, adətən, mövcud qanunvericiliyin nəzərdən keçirilməsi və köhnə qanunvericiliyin ləğv edilməsi əsasında sistemləşdirilməsi; 2.dilç. Dil normalarının nizama salınması və onların soraq kitablarında, lüğətlərdə, qrammatikalarda və s. təsbit edilməsi (Толковый словарь иноязычных слов, 2003; http://elchinya.narod.ru/downloads/Tertib/Luget.pdf). Onomastikada kodifikasiyanı belə müəyyən etmək olar: xüsusi adlarla bağlı normativ hüquqi aktların forma və məzmun baxımından təkmilləşdirilməsi, sistemləşdirilməsi və dil normalarının nizama salınması. Hər bir dildə antroponimlər kodifikasiya olunur, orfoqrafik-qrammatik qaydalara uyğun işlənir. Onomastik vahidin əsas qrafik işarəsi böyük hərfdir. Bu, onimləri ümumi isimlərdən fərqləndirən başlıca xüsusiyyətdir. Xüsusi adların orfoqrafiyasının özünəməxsus qanunauyğunluqları vardır. Lakin bu məsələ Azərbaycan dilçiliyində kifayət qədər öyrənilməmişdir.

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan dilidir. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun üç maddəsi Azərbaycan dilinin xüsusi adlarda işlənməsi ilə əlaqədardır. Qanunun 8-ci maddəsinə görə, Azərbaycan Respublikası vətəndaşlarının adları, atalarının adları və soyadları dövlət dilində yazılır. Azərbaycan Respublikası vətəndaşlarının adları və soyadlarının dəyişdirilməsi müvafiq qanunvericiliklə tənzimlənir (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003).

Cəmiyyət üzvlərini, fərdləri fərqləndirmək vasitəsi olan şəxs adları hər bir insanın ictimai vəziyyəti, estetik zövqü və dövrün hüquq normaları ilə bağlıdır. Şəxs adları cəmiyyət üzvləri arasında ünsiyyət, qarşılıqlı münasibət yaradılmasına xidmət edir. Onlar irsən keçmir. Buna görə də şəxs adları daha geniş miqyasda kodifikasiya olunur. Məcəlləşdirməni müxtəlif amillər şərtləndirir:

a) sistemlilik amili – xüsusi isimlərin kodifikasiyası vahid dil sistemində baş verir;

b) milli amil – adlar kodifikasiya olunarkən ad daşıyıcılarının Azərbaycan xalqının nümayəndələri olması nəzərə alınır. Kodifikasiya nəticəsində ad milli dil sisteminə daxil olur. Kodifikasiya olunmuş ad asan tələffüz edilməlidir, qadın və ya kişi adı olması müəyyənləşməlidir;

c) tarixi amil – tarixən Azərbaycan Türkcəsinə başqa dillərdən (xüsusən ərəb-fars) xeyli ad keçmişdir. Onlar Azərbaycan dilinin norma və qayda-qanunlarına tam uyğunlaşmışdır.

Müasir kodifikasiya üsulları da Azərbaycan dilinin ənənəvi prinsipləri, xüsusiyyətləri ilə bağlıdır;

ç) beynəlxalq amil – xüsusi adlar ən beynəlmiləl sözlər hesab olunur. Onlar bir dildən başqasına asanlıqla keçə bilir. Eyni ad ayrı-ayrı dillərdə müxtəlif fonetik, qrammatik və orfoqrafik formalara malik olur;

d)ictimai amil – şəxs adlarının rəsmi formalarının kodifikasiyası cəmiyyətdə adların öz funksiyalarını yerinə yetirməsinə imkan verir. Bu prosesdə Vətəndaş Vəziyyəti Aktlarının Qeydiyyatı (VVAQ), "ASAN xidmət"[2] orqanlarının təlimatları köməkçi vasitə kimi xidmət edir;

e) etik amil – insana ad vermək böyük məsuliyyət tələb edir. Verilən hər bir ad mənalı, gözəl, ahəngdar olmalı, şəxs öz adına görə utanmamalıdır. Şəxs adlarının kodifikasiyası dil və ictimai baxımdan münasib olmayan adların dəyişdirilməsinə, aradan qaldırılmasına imkan verir.

Müasir Azərbaycan dilində insanın rəsmi ad formulu üç komponentdən ibarətdir: şəxs adı, ata adı və soyad. Həmin ad formulundan istifadə edilməsi rəsmiləşdirilmiş, pasport və digər rəsmi sənədlərdə şəxs adı+ata adı+soyad formulu təsbit edilmiş, adların verilmə qaydaları qanunvericilik aktlarında ifadə olunmuşdur. İnsanın rəsmi adının norması kimi üçüzvlü formulun qanunvericilik tərəfindən təsbiti onun komponentlərinin antroponimik sistemin sabit elementlərinə çevrilməsinə kömək etmişdir. Həmin norma bu günə qədər dəyişməz qalıb, çünki sosial həyatın ehtiyacları onun məqsədəuyğunluğunu şərtləndirir.

Məlum olduğu kimi, ictimai quruluşun qanunauyğunluqları, hər şeydən əvvəl, şəxsin rəsmi sənədlərdə qəbul edilmiş ad modelində əks olunur. Rəsmi-işgüzar xarakterli müxtəlif sənədlərdəki şəxs adları müəyyən informasiyanı özündə əks etdrir:

1)ölkənin ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişaf xüsusiyyətləri;

2)cəmiyyətin mənəvi inkişafının səviyyəsi.

Uşağın ad, ata adı, soyad daşımaq hüququ, soyadların dəyişdirilməsi və bundan irəli gələn digər məsələlər "Ailə Məcəlləsi" ilə tənzimlənir. "Məcəllə"yə görə, uşaq ad, ata adı və soyad daşımaq hüququna malikdir. Uşağa ad valideynlərin razılığı ilə verilir, ata adı atasının adına görə verilir. Uşağın soyadı valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda ona valideynlərin razılığı ilə atanın və ya ananın soyadı verilir (Azərbaycan Respublikasının Ailə Məcəlləsi, 2009). Uşağa ad, ata adı və soyad verilməsi ilə bağlı "Ailə Məcəlləsi"ndəki hüquq normaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları" ilə əsaslandırılıb. Lakin uşağa valideynlərin soyadından fərqli soyadın verilməsi, habelə ata adına uyğun soyadın verilməsi "Ailə Məcəlləsi"ndə və adıçəkilən "Qaydalar"da nəzərdə tutulmayıb. Yəni mövcud qanunvericiliyə görə, uşağa yalnız valideynin və ya valideynlərdən birinin soyadına uyğun soyadın verilməsi mümkündür.

Soyad sonluğuna dəyişiklik edilməsi məsələsinə gəlincə, bu, Milli Məclis tərəfindən 2 fevral 1993-cü il tarixli "Azərbaycan Respublikası vətəndaşlarının soyadlarının dövlət dilinə uyğunlaşdırılması haqqında" qərarı, həmçinin Nazirlər Kabinetinin "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları" ilə tənzimlənir. Ölkə vətəndaşları soyadlarındakı -ov/-yev sonluğunu -lı/-li/-lu/-lü, -zadə, -oğlu, -qızı sonluqları və ya sonluqsuz ifadə formaları ilə əvəz edə bilər.

Ailə Məcəlləsinə əsasən, vətəndaş öz adını və soyadını, atasının adını dəyişdirmək istəyirsə, bunu 18 yaşına çatdıqdan sonra edə bilər. Hər iki valideynin soyadı dəyişdirildikdə, yetkinlik yaşına çatmayanların soyadı dəyişir. Uşaq 18 yaşına çatana qədər onun adının

[2] "ASAN xidmət" – Azərbaycan Respublikasında dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən mərkəzlər

dəyişdirilməsinə, eləcə də soyadının digər valideynin soyadına dəyişdirilməsinə, valideynlərin birgə xahişinə əsasən və uşağın mənafeyini nəzərə alaraq müvafiq icra hakimiyyəti orqanı icazə verə bilər. 10 yaşına çatmış uşağın adı və ya soyadı yalnız onun razılığı ilə dəyişdirilə bilər.

Şəxs adlarına nisbətən soyadların kodifikasiyası zamanı müəyyən çətinliklər üzə çıxır. Kökə-nəslə verilən bir ad kimi soyadların orfoqrafiyası sahibinin istəyi olmayana qədər dəyişilməz qalır. Soyadlar bütöv bir nəslin adını mühafizə edib saxladığı üçün onların orfoqrafiyasında dəyişiklik edərkən çox diqqətli olmaq lazımdır. Soyadın daşıyıcısı onun yazılışına nəzarət etməlidir.

Azərbaycan dilində soyadlar, əsasən, aşağıdakı üsullarla düzəlmişdir:

1. -ov/-ova, -yev/-yeva şəkilçisini baba və ya ulu babanın adına əlavə etməklə: Hüseynova, Ağayev və s.

2. -lı/-li/-lu/-lü şəkilçisini müxtəlif şəxs (ata, baba, ulu baba və s.) adlarına, habelə etnonimlərə, toponimlərə əlavə etməklə: Göyçaylı, Sultanlı, İbrahimli və s.

3. -i/-vi şəkilçisini toponim və etnonimlərə, bəzən də şəxs adlarına əlavə etməklə: Azəri, Xiyabani, Səlimi və s.

4. -ski/-skaya şəkilçisini toponim və etnonimlərə, bəzən də şəxs adlarına əlavə etməklə: Şıxlinski, Talışinskaya və s.

5. -zadə komponentini əlavə etməklə: Səmədzadə, Quluzadə və s.

6. Şəxs adının sonuna "oğlu", "qızı" sözlərini əlavə etməklə: Yusifqızı, Həsənoğlu və s.

7. Heç bir şəkilçi qəbul etmədən işlədilən soyadlar da vardır: Mehdi Hüseyn, Süleyman Rüstəm və s.

8.-soy elementinin köməyi ilə də soyadlar düzəlir: Firudin Qurbansoy, Aişən Hüseynsoy və s.

Soyad dilin ayrılmaz hissəsidir və onun qanunlarına tabe olmalıdır. Hazırda ad və soyadların milliləşdirilməsində əvvəlki illərlə müqayisədə inkişaf var. Soyad sonluqlarının dəyişdirilməsi daha çox nəzərə çarpır, buna maraq artıb, vətəndaşlar daha çox -lı, -li, -lu, -lü şəkilçisi olan formaya və şəkilçisiz formaya üstünlük verir. Hüquqi cəhətdən həm bu, həm də digər formantlı (-lı$^4$, -zadə, -i və s.) soyadlarda kodifikasiya aparılmışdır.

Şəxs adı, ata adı, soyad insanı identifikasiya edən məlumatların tərkibinə daxil olur, bunlar qanun tərəfindən "şəxsi məlumatlar" kimi təsbit edilir. Xüsusi ad insanı fərdiləşdirir, onu başqa insanlardan fərqləndirir, deyktik (işarəedici) funksiya yerinə yetirir, şəxsi keyfiyyətlərin daşıyıcısı kimi insana işarə edir. Onimlər yalnız onlara xas funksional xüsusiyyətlərə, məna strukturuna malik olmaqla yanaşı, münaqişə potensialına da malikdir. Lakin münaqişə bir insan çərçivəsindən kənara çıxmayana qədər hüquqi sferaya daxil olmur. Bəzən xüsusi adlardan dil sahəsində qanun pozuntularının həyata keçirilməsi vasitəsi (xüsusilə ad hüququnun pozulması, təhqir vasitəsi və s.) kimi istifadə edilir.

Onimlər bir çox funksiya yerinə yetirir ki, bunlardan identifikasiya və fərdiləşdirmə funksiyaları üzərində bir qədər dayanmağı lazım bilirik. İdentifikasiya obyektlərin (o cümlədən insanların) tanınması, onların müəyyən sinfə aid edilməsi, ya da məlum əlamətlərin əsasında tanıma kimi başa düşülür. O, "perseptiv hərəkətin növlərindən biridir; ... iki obyektin tutuşdurulmasından və ya qavranılan obyektin hafizədə yazılan etalonla tutuşdurulmasından, onların eyniliyinin, ya da fərqlənməsinin müəyyən edilməsindən ibarətdir" (Большой психологический словарь, 2003: 188). Dil işarəsi kimi onimlər forma və məzmun vahidliyi ilə səciyyələnir. İdentifikasiya funksiyası adın forma cəhəti ilə bağlıdır: adın formasının sabitliyi və daimiliyi bu funksiyanı yerinə yetirməyə imkan verir. Onun cəmiyyət üçün də böyük əhəmiyyəti var: şəxs adı, ata adı, soyad şəxsiyyəti ictimai münasibətlərin iştirakçısı kimi

müəyyənləşdirir, öz daşıyıcısını birmənalı şəkildə identifikasiya edə bilir, bu da onların “oxşarlar sırasından seçilən fərdi obyektlərə aid edilməsinə, ad - əşya assosiasiyalarının vahidliyinə” görə baş verir (Суперанская, 2009: 45). Ad yeganə daşıyıcıya məxsus identifikasiya vasitəsi kimi şəxslə şəxs haqqındakı informasiya arasında əlaqələndirici halqa olur. Əslində hər obyektin təkrarlanmayan adı olmalıdır, praktikada isə adların tam və ya qismən üst-üstə düşməsi, omonimliyi ilə qarşılaşırıq, buna görə də belə hallarda identifikasiya obyekt haqqında əlavə məlumatlarla – insanın doğulduğu tarix və yer, qeydiyyat yeri və digər şəxsi informasiyanın köməyi ilə həyata keçirilir.

Psixologiyada fərdiləşdirmə insanın mənəvi keyfiyyətləri, düşüncələri, hissləri, arzuları, ehtiyacları, maraqları, hərəkətləri, davranışları və b. xüsusiyyətləri ilə birlikdə bütöv xarakteristikası ilə əlaqələndirilir. Fərdiləşdirmə funksiyası adın məzmun cəhəti ilə əlaqədardır, bu funksiyanın köməyi ilə ad fərdiləşdirir, adlandırılan obyektə bu və ya digər xüsusiyyətləri, keyfiyyətləri aid edir. Xüsusi ad bu funksiyaları müxtəlif şəraitdə yerinə yetirir. Həmin situasiyaları nəzərdən keçirək:

1. Ad seçimi və advermə. Adın seçimi və qeydiyyatı zamanı, xüsusi adlara və seçim meyarlarına müxtəlif baxışların olması ilə əlaqədar münaqişələr yarana bilər. Uşağa ad seçilməsi hər insanın həyatında – həm adverən, həm də ad verilən kimi – böyük əhəmiyyət kəsb edir. Adətən, uşağa kortəbii yox, şüurlu surətdə, müəyyən prinsiplərə, ənənələrə əsaslanan seçim yolu ilə ad verilir. Antroponimlərin seçimini müəyyən edən əsas faktorları onomastik universali saymaq olar. Adın seçilməsində onun mənası, anlayışla və adlandırılan obyektlə əlaqəsi problemi aktuallaşır. Ad seçimi prinsipləri ilə bağlı iki zidd fikir mövcuddur: 1)ad böyük əhəmiyyətə malikdir və insanın həyatına təsir edir, ad seçimi onun mənası, mənşəyi və digər amillərlə müəyyən olunur; 2)ad seçimində yalnız onun xarici forması, ahəngdarlığı nəzərə alınır. Advermədə dil sisteminin, habelə hüquq normalarının qoyduğu məhdudiyyətlər var. Bəzən mövcud milli antroponimik sistemin ənənəvi normaları, dil normalarına uyğun gəlməyən adlar verilir. Qeydiyyat orqanları nümayəndələrinin fəaliyyəti təlimatlara uyğun olmalıdır, valideynlər isə həmin hüquqdan uşağın maraqlarına zidd istifadə etməməli, uşağı utandıran, özündə və ya ətrafdakılarda xoşagəlməz assosiasiyalar doğuran ad verməməlidir. Belə adlar uşağın sosial-psixoloji vəziyyətinə də mənfi təsir göstərə bilər.

2. Adın düzəlişi. Adların yazılışı təkcə dil qanunları ilə deyil, həm də mövcud ənənələrlə tənzimlənir. Ancaq bu ənənələr bəzən orfoqrafiya pinsipləri ilə ziddiyyət təşkil edir. Bəzi hallarda qeydiyyat zamanı ad səhv yazılır və dil qaydalarına uyğun olmayan belə yazılış “qanuniləşir”. Adın eyni bir şəxsə mənsubluğunun müəyyənləşdirilməsi zəruridir. Rəsmi təsbit edilmiş ad əsas identifikatordur. Adın sənədlərdə müxtəlif şəkildə yazılması şəxsin öz hüquqlarından istifadə etməsinə mane ola bilər. Adlarda düzəlişlər, dəyişikliklər edilməsi müvafiq icra orqanlarının aktları ilə tənzimlənir.

3. Adın dəyişdirilməsi. Qeyri-adi, komik məna verən, mənfi assosiasiya doğuran adlar və s. münaqişəli adlar sayılır. Belə adların dəyişdirilməsi qanunvericilikdə nəzərə alınıb.

4. Adın bir dildən başqasına ötürülməsi. Adlar özünəməxsus semantikaya və forma xüsusiyyətlərinə malikdir. Dillərarası ötürülmə zamanı adların linqvistik xüsusiyyətlərini, habelə yeni dil mühitində onların işlənməsinə təsir göstərən amilləri nəzərə almamaq çoxlu miqdarda səhvlərin, təhriflərin, yaxşı səslənməyən adların yaranmasına gətirib çıxarır. Bu zaman ad daşıyıcısının identifikasiyası çətinləşir, adın verilmə forması daşıyıcını qane etmir.

5. Adın ticarət nişanı kimi işlənməsi. Bu sahədə münaqişələr, bir qayda olaraq, məşhur adamların adından ticarət nişanı kimi qeyri-qanuni istifadə zamanı meydana çıxır.

6. Müəllif hüquqlarının qorunması üçün addan istifadə. Elm, ədəbiyyat, incəsənət sahəsində çalışan yaradıcı şəxslərin işgüzar fəaliyyəti üçün onların müəllif hüququ qorunmalıdır. Əsər müəllifi ad vasitəsilə öz müəllifliyini göstərmək hüququna malikdir. Bunun üçün həqiqi ad və ya təxəllüsdən istifadə oluna bilər. Ad əsərlə müəllifi əlaqələndirməyə imkan

verən identifikasiya vasitəsi kimi xidmət edir. Münaqişə aşağıdakı hallarda baş verə bilər: müəllifin adı göstərilmir, müəllif kimi başqa bir şəxsin adı verilir və s.

**Azərbaycan Respublikasında Onomastik Fəaliyyətin Prinsipləri**

Onomastika elmi-praktik, mədəni-tarixi, həmçinin ictimai-siyasi əhəmiyyət kəsb edən bir sahədir. Milli onomastikanın aktual məsələlərinin yerinə yetirilməsi onların normativ hüquqi təminatı ilə bilavasitə bağlıdır. Onomastik fəaliyyətin normativ hüquqi bazası Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinə, "Dövlət dili haqqında Azərbaycan Respublikası Qanunu"na əsaslanır.

Milli onomastika problemlərinin dövlət səviyyəsində nəzərdən keçirilməsi, onomastika sahəsində işlərin sistemləşdirilməsi və koordinasiyasının gələcək inkişafı üçün "Azərbaycan Respublikasında Onomastik Fəaliyyət Sistemi"nin işlənib hazırlanması məqsədəuyğundur. Bu "Sistem" onomastik fəaliyyətin məqsədi, prinsipləri və hüquqi formaları haqqında nəzəri görüşlərin məcmusudur.

1. "Onomastik Fəaliyyət Sistemi"nin məqsəd və vəzifələri

"Onomastik Fəaliyyət Sistemi"nin məqsədi – milli onomastik sistemin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsidir. "Onomastik Fəaliyyət Sistemi"nin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr nəzərdə tutulur:

1) respublikada onomastik fəaliyyətin nizamlanmasının əsas istiqamətlərinin və milli onomastik sistemin inkişaf prinsiplərinin müəyyənləşdirilməsi; 2) onomastik fəaliyyətin həyata keçirilmə mexanizminin hazırlanması.

2. "Onomastik Fəaliyyət Sistemi"nin başlıca istiqamətləri və mexanizmləri:

1) elmi-analitik və elmi-praktik fəaliyyət; 2) Azərbaycan Respublikasında inzibati-ərazi vahidləri adlarının nizamlanması, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi və tarixi coğrafi adların bərpası; 3) Azərbaycan Respublikasında vətəndaşların şəxs adları, ata adları və soyadlarının nizama salınması; 4) vizual informasiya və reklam mətnlərinin hazırlanmasına nəzarət və onun koordinasiyası; 5) normativ hüquqi bazanın gələcək təkmilləşdirilməsi.

3. Elmi-analitik və elmi-praktik fəaliyyətə daxildir:

1) Azərbaycan onomastik məkanının sahələri üzrə kompüter fondunun formalaşdırılması; 2) mövcud toponimik fond əsasında toponimlərin milli leksik-qrafik bazasının təşkili; 3) Azərbaycan onomastikası üzrə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi; 4) Azərbaycanın Rusiyanın tərkibinə daxil olmasından əvvəl və sonra ideoloji təzyiq nəticəsində meydana çıxmış coğrafi adların dəyişdirilməsi faktlarının qeydə alınması və bunların təhlili; 5) paleotoponimlərin sistemləşdirilməsi və qeydə alınması; 6) Azərbaycan toponimlərinin işlənmə tezliyinin öyrənilməsi.

Elmi-analitik və elmi-praktik fəaliyyətin təmin edilməsinin əsas vasitələri bunlardır:

1) nəzəri və praktik onomastik tədqiqatların inkişafı, əsərlərin çapı, konfranslar, seminarlar, dəyirmi masaların keçirilməsi; 2) yeni texnologiyalar tətbiq etməklə fiziki-coğrafi obyekt adları və oykonimlər kataloqunun zəruri materiallarla təchiz edilməsi; 3) onomastika sahəsində dünya birliyinin təcrübəsinin öyrənilməsi və nəzərə alınması; 4) informasiyanın toplanması və təhlili üçün qabaqcıl texnologiyaların işlənib hazırlanması və tətbiqi; 5) normativ hüquqi bazanın təkmilləşdirilməsi üzrə görülən tədbirlərin effektivliyinin dəyərləndirilməsi; 6) tarixi adların qorunması məqsədilə əhali ilə söhbətlər, izahat işləri aparmaq, dövri mətbuatda materialların nəşri, radio və televiziyada çıxışlar.

4. Azərbaycan Respublikasında inzibati-ərazi vahidləri adlarının nizamlanması, yaşayış məntəqələri adlarının dəyişdirilməsi və tarixi coğrafi adların bərpası üzrə görüləcək işlər:

1) inzibati-ərazi vahidlərinə dövlət qarşısında xidmətləri olan və vətənin tarixini, elmini, mədəniyyətini, ədəbiyyat və incəsənətini zənginləşdirən insanların, o cümlədən dövlət və ictimai xadimlərin, dünya miqyaslı elm və mədəniyyət xadimlərinin adlarının verilməsində müəyyən prinsiplərə riayət olunması; 2) eyni adların dəfələrlə təkrarına və yayılmasına yol verməmək; 3) hazırda yaşayan şəxslərin adlarının verilməməsi; 4) xatirə lövhələri vurulmasının müvafiq nazirliklərlə razılaşdırılması; 5) inzibati-ərazi vahidlərinin, yaşayış məntəqələrinin, şəhərdaxili obyekt adlarının ideolojiləşməsinin qarşısını almaq.

5. Azərbaycan Respublikasında vətəndaşların şəxs adları, ata adları və soyadlarının nizama salınması.

Bunun üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, "ASAN xidmət", VVAQ orqanları ilə birlikdə antroponimik lüğətlər və soraq kitablarının buraxılması üzrə koordinasiya və təşkilati işlər, habelə antroponimlərin milli dilin fonomorfoloji normalarına müvafiq düzgün yazılması və başqa dillərə transliterasiyası həyata keçirilməlidir.

6. Vizual informasiya və reklam mətnlərinin hazırlanmasının koordinasiyası

Bu istiqamətdə aşağıdakı tədbirlərin nəzərdə tutulması zəruridir: 1) idarələrin, kommersiya strukturlarının, xarici nümayəndəliklərin və s. lövhələrinin, lövhə reklamlarının bədii tərtibatı zamanı dil mədəniyyətinin təkmilləşdirilməsi üzrə tövsiyələrin işlənib hazırlanması; 2) reklam lövhələrindəki xüsusi adların, mülkiyyət formalarından asılı olmayaraq təşkilat, idarə, müəssisələrin adlarının dövlət dilində olması üzrə monitorinqlər, obyekt adlarının dil normalarına uyğun qaydaya salınması.

7. Normativ hüquqi bazanın gələcək təkmilləşdirilməsi

Onomastikada sistemləşdirmə və koordinasiya işlərinin gələcək inkişafı məqsədilə bu sahədə normativ hüquqi baza daim təkmilləşdirilməlidir. Bununla əlaqədar aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur: 1) onomastika sahəsində görülən işlərə nəzarət üçün qanunvericiliyə müvafiq dəyişikliklər və əlavələr daxil etmək; 2) antroponimlərin, coğrafi adların dövlət dilində yazılışı, başqa dillərə transkripsiyası, yaxud transliterasiyası qaydalarını işləyib hazırlamaq; 3) vətəndaşların şəxs adları, ata adları və soyadlarının milli dilin fonomorfoloji normalarına müvafiq düzgün yazılışı və başqa dillərə transliterasiyasının həyata keçirilməsi üzrə Təlimat işləyib hazırlamaq; 4) onomastik fəaliyyəti tənzimləyən normativ hüquqi aktlar tərtib etmək.

8. "Onomastik Fəaliyyət Sistemi"nin həyata keçirilmə mexanizmləri

Bu proses mərkəzi və yerli dövlət idarəçiliyi orqanlarının onomastikanın gələcək inkişafı üzrə fəaliyyətinin koordinasiyasını nəzərdə tutur.

9. "Onomastik Fəaliyyət Sistemi"nin tətbiqindən gözlənilən nəticələr

Bu "Sistem" Respublikada onomastik fəaliyyətin koordinasiyası, tənzimlənməsi ilə yanaşı, milli varlığın qorunub saxlanması, ümumbəşəri mədəniyyət və onun dəyərləri ilə qarşılıqlı əlaqə kimi humanitar məqsədləri nəzərdə tutur.

**Nəticə**

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, xüsusi adların nizamlanmasının başlıca vasitəsi bu adların rəsmi formalarının kodifikasiyasıdır. Onomastik kodifikasiya dedikdə, xüsusi adlarla bağlı normativ hüquqi aktların forma və məzmun baxımından təkmilləşdirilməsi, sistemləşdirilməsi və dil normalarının nizama salınmasını nəzərdə tuturuq. Şəxs adlarının kodifikasiyasında milli, tarixi, sosial, etik və s. amillərin rolu böyükdür.

Xüsusi adların identifikasiya və fərdiləşdirmə funksiyalarının yerinə yetirilməsində ad formasının sabit və daimi olması zəruridir. Onimlərin təkrarlanmaması, tam və ya qismən üst-üstə düşməməsi üçün identifikasiya həyata keçirilir. Obyekt haqqında əlavə məlumatlar –

insanın doğulduğu tarix və yer, qeydiyyat yeri və digər şəxsi informasiya köməyi identifikasiya funksiyasının yerinə yetirilməsinə kömək edir. Fərdiləşdirmə funksiyasının həyata keçirilməsi ad seçimi, advermə, addəyişmə, adın başqa dildə verilmə prinsipi və s. kimi situasiyalardan asılıdır.

Milli onomastikanın aktual məsələlərinin yerinə yetirilməsi onların normativ hüquqi təminatı ilə bilavasitə bağlıdır. Bu işdə onomastik fəaliyyət sisteminin yaradılması çox önəmlidir. Bu sistemin əsas məqsədi: 1)onomastik fəaliyyətin koordinasiyası və tənzimlənməsi, 2)milli varlığın qorunub saxlanması, 3)ümumbəşəri mədəniyyət və onun dəyərləri ilə qarşılıqlı əlaqənin yaradılmasıdır.

Qloballaşma tempinin artması, ölkədə ictimai-siyasi, iqtisadi inkişaf onomastik məkanın kompleks tədqiqinə öz töhfəsini verir. Bununla əlaqədar milli onomastikada müxtəlif tendensiyaların, dəyişikliklərin və yeniliklərin tənzimlənməsi məsələsi dövlət səviyyəsində himayəni, müvafiq maddi təminatı tələb edən, uzunmüddətli və elmi, mədəni, milli, sosial əhəmiyyətə malik çox mühüm kollektiv yaradıcılıq işi kimi nəzərdən keçirilməlidir. Onomastikanın müasir inkişaf səviyyəsi müxtəlif aspektli araşdırmalar aparılması üçün xüsusi adların normalaşdırılmasını tələb edir.

**Kaynaklar**

*Azərbaycan Respublikasının Ailə Məcəlləsi.* (2009). Bakı: Qanun.

Azərbaycan Respublikasında dövlət dili haqqında. Azərbaycan Respublikasının Qanunu. (2003). *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (31 yanvar 2003-cü il, № 1, maddə 2).* Bakı.

*Bolşoy psixologiçeskiy slovar. (2003).* Sankt-Peterburg: Praym-Yevroznak.

*İctimai, siyasi, hüquqi, iqtisadi, coğrafi və tarixi terminlərin ümumi izahlı lüğəti.* Tərtibçi: Elçin Cəfərov. http://elchinya.narod.ru/downloads/Tertib/Luget.pdf

Krısin, L. P. (2006). *Tolkovıy slovar inoyazıçnıx slov.* Moskva: Eksmo.

Golev, N. (2003). *Vzaimodeystviye yestyestvennogo i yuridiçeskogo yazıka kak bazovaya problema yurislingvistiki* (2017, 5 sentyabr). URL: http://lingvo.asu.ru/golev/articles/z09.html

Muravyova, N. (2004). *Yazık konflikta*. Moskva: Termika: Kodeks. URL: http://elar.urfu.ru/bitstream/10995/1438/5/1324428_readingbook.pdf CD-ROM

Normativ hüquqi aktlar haqqında. Azərbaycan Respublikasının Konstitusiya Qanunu. (2011). *Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (16 fevral 2011-ci il, № 2, maddə 39).* Bakı.

Superanskaya, A. (2009). *Obşşaya teoriya imeni sobstvennogo*. Moskva: Librokom